# Knarr Glass Road

Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

Knarr Glass Road metil metakril əsaslı, iki komponentli, ultrabənövşəyi şüalara, kimyəvi və fiziki təsirlərə qarşı  dayanıqlı soyuq tətbiq edilən yol cizgi boyasıdır. Tərkibindəki şüşə pulcuqlar sayəsində işığı əks etdirərək  qaranlıqda da görünə bilir.

## İstifadə olunacaq səthlər və xüsusiyyətləri

Knarr Glass Road hər növ şəhərdaxili avtomobil yolları, piyada keçidləri, hava limanları və s. sahələrdə, asfalt və beton səthlərdə, xüsusilə piyada keçidlərində, çox sıx hərəkət və yol hərəkəti təhlükəsizliyinin vacib olduğu  piyada dövriyyəsində yol cizgi boyası və nişanlama məqsədi ilə istifadə edilə bilər. Tətbiq edildikdən sonra  tez quruması ilə piyada və nəqliyyat vasitələrinin hərəkətinə şərait yaradır. Zamanla içərisindəki şüşə pulcuqlar səthə çıxdığı üçün qaranlıqda görünə bilmə xüsusiyyətini itirmir.

## Fiziki xassələri

| | | |
|---|---|---|
| **Rəng** | | Ağ, sarı, qırmızı |
| **Qatı maddə miqdarı** | ASTM D2697-03 | 93%±2 (by volume) |
| **Sıxlığı (gr/sm$^3$)** | ASTM D1475-13 | 2±0.02 |
| **Özlülüyü (25°C) KU** | ASTM D562-10 | 160±5 |
| **Parlaqlıq (GU 60$^o$C)** | ASTM D523-14 | Parlaq |
| **İncəltici** | | İncəldilmir |

## Səthin hazırlanması

Tətbiq olunan səth hər cür kir, yağ, toz və boş təbəqələrdən təmizlənərək lazımı səth korreksiyası işləri aparılmalıdır. Tədbiq ediləcək sahə yaxşı havanladırılmalı, quru, təmiz və sağlam olmalıdır. Knarr Glass Road qəliblər yerləşdirildikdən sonra Comp A mikser ilə ən az 3 dəqiqə yaxşı qarışdırılmalı, sonra 2% nisbətində (500qr) toz şəklində olan Comp B ilə qarışdırma davam etdirilməlidir. Qarışdırma sonrası gözlənilmədən məhsulu qəlibə tökərək tətbiqə başlanmalıdır. Potlife müddəti 7 dəqiqə olduğu üçün istifadə ediləcək qədər Comp A və Comp B qarışdırılmalıdır. Boya qurumadan üzərinə şüşə pulcuq tökülür. Çox isti havalarda günəş altında tətbiq məsləhət görülmür. Akşam saatları və ya səhər istifadə edilməlidir.

## Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com

# Knarr Glass Road

Texniki Məlumat Səhifəsi

| Tempratur (°C) | Sərtləşdirici istifadə miqdarı (% gr.) | İstifadə müddəti (Potlife) | Quruma müddəti (Dəqiqə) |
|---|---|---|---|
| +10 | 3% | 14 | 45-60 |
| +20 | 2% | 10 | 30-45 |
| +30 | 0.5% | 12 | 30-45 |
| +40 | 0.2% | 11 | 28-43 |

*Yuxarıda göstərilmiş məlumatlar qaydalara əməl olunmaqla müəyyən olunmuşdur. Quruma vaxtı film qalınlığına, havalandırmaya, səthdə var olan boya sisteminə, boyanın keçirdiyi əməliyyatlara görə arta və ya azala bilər.*

## Saxlama şərtləri

Boya ərazi şəraiti diqqətə alınaraq quru, sərin, yaxşı havalandırılmış, yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda qapağı açılmamış halda saxlanmalıdır. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır. Qablar sıx bağlanmalıdır. Rəf ömrü (23°C-də) 24 aydır.

## Qablaşdırılma şəkli

25 KQ-lıq dəmir qablarda Comp A, 500GR-lıq dəmir qablarda Comp B olaraq  istehsal olunur.

## Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

## Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

## Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

***Qeyd:*** *"CMT Group" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

---

**"CMT Group" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 502 45 50
Faks: (+994 12) 502 45 51
E-mail: office@cmt.com.az
Web-site: www.knarrpaints.com